**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SEVDA XANMƏMMƏD qızı İSGƏNDƏROVA**

# YENİYETMƏLƏR ARASINDA İNSAN HÜQUQLARI ÜZRƏ APARILAN İŞİN SİSTEMİ

**5804.01 - ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru**
**elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**Bakı – 2018**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Akif Nurağa oğlu Abbasov**
pedaqogika üzrə elmlər doktoru, professor,
Əməkdar müəllim

**Rəsmi opponentlər:** **Mübariz Mirəziz oğlu Əmirov**
pedaqogika üzrə elmlər doktoru, professor

**Vidadi Paşa oğlu Bəşirov,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Sumqayıt Dövlət Universitetinin**
**Pedaqogika və psixologiya kafedrası**

Müdafiə «__10___» __aprel______ 2018-ci ildə saat __$16^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki FD.02.161 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68
ADPU, əsas bina, kiçik zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Avtoreferat «_____» ___________ 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **Rövşən Zülfüqar oğlu Hümbətəliyev**
*riyaziyyat üzrə elmlər doktoru, dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin aktuallığı**. 1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatı insan hüquqları ilə bağlı son dərəcə mühüm sənəd – Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB) qəbul etdi. Bu, vətəndaş hüquqları sahəsində bəşəriyyətin tarixi və taleyi üçün müstəsna əhəmiyyətli bir hadisə idi. Bəyannamədə hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir insanın və hər bir dövlətin yerinə yetirməli olduğu insan hüquqlarının məqsəd və prinsipləri elan edilir. Ona görə də sənəd Ümumdünya Bəyannaməsi kimi nəzərdə tutulur.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (ÜİHB-də) insan hüquqları fəlsəfəsinin ideyaları və humanizmi insan ləyaqətinin himni kimi diqqəti cəlb edir. Bu xüsusda Bəyannamədə deyilir: "Bütün insanlar ləyaqət və hüquqlarına görə bərabər doğulurlar. Onların şüurları və vicdanları var və bir-birlərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar".

Heç də təsadüfi deyil ki, Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasını ölkə Konstitusiyasının 12-ci maddəsinə əsasən dövlətin ali məqsədi kimi bəyan edilmişdir. Bu müddəaya uyğun olaraq, Azərbaycanda insan hüquqlarının inkişafına və təkmilləşdirilməsinə daim böyük diqqət yetirilir. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, Konstitusiyada sadalanan insan və vətəndaş hüquqlarının və azadlıqlarının inkişaf və təkmilləşdirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Hər bir uşaq, hər bir yeniyetmə öz hüquq və azadlıqlarını, eyni zamanda üzərinə düşən vəzifələrini bilməlidir. Bu, ona görə lazımdır ki, həyati vəziyyətlərdə hüquq və azadlıqlarından asanlıqla istifadə edə bilsin, lakin həm də konstitusion vəzifələrini yerinə yetirsin. İnsanların hüquq və azadlıqları Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, hər bir şəxsin vətəndaşı olduğu ölkənin Əsas Qanununda – Konstitusiyasında təsbit olunur. Bu fikir baxımından Azərbaycan vətəndaşlarının hüquq və azadlıqları, vəzifələri Azərbaycan Respublikasının Konstitusiyasında öz ifadəsini tapmışdır. Bizim hər birimiz, o cümlədən uşaqlar, yetkinlik yaşıma çatmamışlar Konstitusiyamızın ayrı-ayrı maddələri ilə yaxından tanış olmalıdırlar.

Bundan başqa, uşaqların mənafeyinə xidmət edən bir sıra qanunlar, konvensiyalar vardır ki, ayrı-ayrı ölkələr həmin konvensiyaların ümumbəşəri əhəmiyyətini nəzərə alaraq, öz dövlətlərində də həmin

hüquqi sənədlərdən irəli gələn konvensiya və qanunlar qəbul etmişlər. Bu mənada BMT-nin Baş Məclisinin 44-cü sessiyasında 1989-cu il noyabrın 20-də qəbul etdiyi "Uşaq hüquqları haqqında Konvensiya"nı; "Uşaqların Cinsi İstismar və Seksual Xarakterli Hərəkətlərdən Müdafiəsinə dair Avropa Şurası Konvensiyası"nı (25 oktyabr 2007) və digər sənədləri nümunə gətirmək mümkündür. Uşaqların müdafiəsini, sağlamlığının mühafizəsini, təhsilinin təşkili, habelə digər hüquq və azadlıqlarının həyata keçirilməsini təmin etmək məqsədi daşıyan həmin beynəlxalq hüquqi sənədlərə ölkəmiz dərhal öz münasibətini bildirmiş, müvafiq qanunlar qəbul etmişdir. "Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu"; Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş "İnsan hüquqlarının müdafiəsi sahəsində dövlət proqramı"; Azərbaycan Respublikasının İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər); "İnsan hüquqları sahəsində milli fəaliyyət proqramı" (27 dekabr 2011); "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" deyilənlərə əyani sübutdur.

Tədqiqatın aktuallığı bir sıra səbəblərdən irəli gəlir. Əvvəla, bu problem respublikamızda xüsusi tədqiqatların mövzusu olmamışdır.

İkincisi, yeniyetmələrin bir qisminin yenidəntərbiyəyə ehtiyacı vardır. Onların bir qismi öz hüquq və azadlıqları, üzərinə düşən vəzifələrlə yaxından tanış deyillər, qanunun tələblərini yaxşı bilmirlər. Yetkinlik yaşına çatmamışlar arasında hüquqi maarifləndirmə işləri tələb olunan səviyyədə aparılmır. Bütün bunlar ümumtəhsil məktəbləri müəllimlərini, sinif və məktəb rəhbərlərini, məktəb ictimai təşkilatlarının rəhbərlərini yeniyetmələr arasında insanların, o cümlədən uşaqların hüquq və vəzifələri, azadlıqları ilə bağlı aparılması lazım gələn işin sistemi ilə tanış etmək zərurətini meydana çıxarır.

Üçüncüsü, yeniyetmələr arasında insan, o cümlədən uşaq hüquqları, azadlıqları və vəzifələri üzrə işin aparılması, həmçinin bu kimi maarifləndirici fəaliyyət nəticəsində hüquq mədəniyyətinin formalaşdırılması problemini özündə ehtiva edən ədəbiyyat azdır.

Problemin aktuallığını nəzərə alaraq, dissertasiya üçün belə bir mövzu müəyyənləşdirdik: "Yeniyetmələr arasında insan hüquqları üzrə aparılan işin sistemi".

**Tədqiqatın obyekti.** Ümumtəhsil məktəbində insan, o cümlədən uşaq hüquqları üzrə yeniyetmə oğlan və qızlar arasında aparılan iş.

**Tədqiqatın predmeti**. İnsan, o cümlədən uşaq hüquqlarının

ümumtəhsil məktəbində həyata keçirilməsinin pedaqoji şərtləri.

**Tədqiqatın məqsədi.** Uşaq hüquqlarının ümumtəhsil məktəbində həyata keçirilməsinin pedaqoji şərtlərini müəyyənləşdirmək, nəzəri cəhətdən əsaslandırmaq və yeniyetmələrdə hüquq mədəniyyətinin formalaşdırılmasına onların təsirini eksperiment vasitəsilə yoxlamaq.

**Tədqiqatın fərziyyəsi.** Ümumtəhsil məktəbində təhsil-tərbiyə prosesi yeniyetmələrdə hüquq mədəniyyətinin inkişaf etdirilməsinə şərait yaradır, bu şərtlə ki:

- yeniyetməlik yaşında olan yeniyetmənin hüquqi səriştəliliyinin xüsusiyyətləri müəyyənləşdirilərsə;
- təhsil-tərbiyə prosesinin subyektlərinin hüquqi səriştəliliyinin inkişafının meyarları və göstəriciləri əsaslandırılarsa;
- insan, o cümlədən uşaq hüquqları, azadlıqları və vəzifələri üzrə yeniyetmə oğlan və qızlar arasında aparılan işin məqsəd və vəzifələri, məzmunu düzgün müəyyənləşdirilərsə;
- insan, o cümlədən uşaq hüquqları, azadlıqları və vəzifələri üzrə yeniyetmə oğlan və qızlar arasında aparılan işin əsas istiqamətləri aydın təsəvvür edilərsə;
- insan, o cümlədən uşaq hüquqları, azadlıqları və vəzifələri üzrə yeniyetmə oğlan və qızlar arasında aparılan işin sistemi yaradılarsa;

Tədqiqatın məqsədinə, obyektinə, predmetinə və fərziyyəsinə əsasən **vəzifələr** müəyyənləşdirilmişdir:

1. Yeniyetmələrdə hüquq mədəniyyətinin formalaşdırılmasının mahiyyətinə və xüsusiyyətlərinə, məzmununa aydınlıq gətirmək;
2. İnsan hüquqlarına dair məsələlər kontekstində yeniyetmələrin hüquq tərbiyəsinin konseptual əsaslarını, nəzəri məsələlərini işləmək;
3. Vətəndaşların və uşaqların hüquq və azadlıqlarına dair sənədlərə yeniyetmələrin hüquq tərbiyəsinin vasitəsi kimi yanaşmaq;
4. Yeniyetmələrin hüquq tərbiyəsi probleminin pedaqoji nəzəriyyədə və təcrübədə vəziyyətini araşdırmaq;
5. İnsan hüquqlarına dair məsələlər kontekstində hüquq tərbiyəsinin təcrübi məsələlərin nəzərdən keçirmək;
6. Təlim prosesində və sinifdənxaric tədbirlər zamanı vətəndaşların hüquqlarına, azadlıqlarına və vəzifələrinə dair məlumatlarla yeniyetmələrin tanış edilmə imkanlarını müəyyən etmək;
7. İnsan hüquqlarına, azadlıqlarına və vəzifələrinə dair məsələlər kontekstində yeniyetmələrdə hüquq mədəniyyətinin formalaşdırılması üzrə işin səmərəlilik göstəricilərini aşkara çıxarmaq.

Tədqiqatın **metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin

dərk olunması və dəyişdirilməsi məqsədilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

Araşdırmaların gedişində **istifadə olunan metodlar**: nəzəri təhlil və tərkib; elmi-pedaqoji, psixoloji və metodik ədəbiyyatın təhlili; pedaqoji müşahidə; pedaqoji müsahibə; sənədlərin öyrənilməsi; riyazi-statistik metodlar; pedaqoji eksperiment.

Tədqiqat zamanı pedaqoji eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərindən istifadə olunmuşdur. Eksperiment 2010-2017-ci illərdə həyata keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi** insan, o cümlədən uşaq hüquqları, azadlıqları və vəzifələri üzrə yeniyetmə oğlan və qızlar arasında aparılan işin sistemini yaratmaqdan ibarətdir.

**Tədqiqatın praktik əhəmiyyəti:**

1. Problemlə bağlı iş sistemi, əsas elmi ideyalar, tədqiqatın nəticələri yeniyetmələr arasında insan, o cümlədən uşaq hüquqlarına, azadlıqlarına və vəzifələrinə dair məqsədyönlü, səmərəli, sistemli və ardıcıl işləri aparmaqda, son nəticədə onlarda hüquq mədəniyyətini formalaşdırmaqda müəllimlərə, sinif və məktəb rəhbərlərinə, məktəb ictimai təşkilatlarının nümayəndələrinə, tərbiyə işləri üzrə direktor müavinlərinə kömək edəcəkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti:**

İrəli sürülən elmi ideyalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, yeniyetmələrdə hüquq mədəniyyəti üçün səciyyəvi sayıla biləcək zəruri keyfiyyətlərin formalaşdırılması işinin elmi əsaslar üzərində qurulmasını təmin edəcəkdir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır**:

1. Yeniyetmələrdə hüquqi şüurun, hüquq təfəkkürünün, hüquqa və qanuna uyğun davranış təcrübəsinin, hüquq mədəniyyətinin formalaşdırılması onlar arasında insan, o cümlədən uşaq hüquqlarına, azadlıqlarına və vəzifələrinə dair məqsədyönlü, sistemli və fasiləsiz işin aparılmasından, hüquqi maariflənmənin səviyyəsindən çox asılıdır.

2. Təlim prosesində Həyat bilgisi və ədəbiyyat dərslərində V-IX sinif şagirdləri ilə insan, o cümlədən uşaq hüquqları, azadlıqları və vəzifələri ilə bağlı aparılan işlər səmərəli nəticələnir.

3. İnsan, o cümlədən uşaq hüquqlarına, azadlıqlarına və vəzifələrinə dair təlim prosesində aparılan işlərin sinifdənxaric tədbirlərdə davam etdirilməsi vacibdir.

4. Yeniyetmələrə insan, o cümlədən uşaq hüquqlarına, azadlıqlarına və vəzifələrinə dair məlumatların verilməsi və bu əsasda onlarda hüquqi

şüurunun, hüquq təfəkkürünün, nəticədə hüquq mədəniyyətinin və hüquqauyğun davranışın formalaşdırılması üzrə fənn müəlliminin fəaliyyəti o zaman səmərəli olur ki, o, hüquqi tərbiyə imkanlardan həm təlim prosesində, həm də sinifdənxaric tədbirlərdə istifadə etməyi bacarsın.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Təklif edilən iş sistemi Bakı şəhərinin 18, Qazax şəhərinin 1 və 2, Gəncə şəhərinin 5 nömrəli məktəblərində tətbiq olunmuşdur. Dissertasiyada nəzərdən keçirilən problemlə bağlı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 6 və xarici ölkədə 1 məqalə nəşr olunmuşdur. İddiaçı eyni zamanda beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmiş, məruzələrin mətnləri nəşr olunmuşdur. Tezislərin sayı 4-dür.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, 7 yarımfəsli özündə birləşdirən iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı əsaslandırılmış, onun işlənmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, metodoloji əsasları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar öz əksini tapmışdır.

**I fəsil "İnsan hüquqlarına dair məsələlər kontekstində yeniyetmələrin hüquq tərbiyəsinin konseptual əsasları"** adlanır. Fəslin birinci yarımfəslində "*Yeniyetmələrin hüquq tərbiyəsinin mahiyyəti, məqsəd və vəzifələri, məzmunu*" nəzərdən keçirilir.

Cəmiyyətimizin hazırkı inkişafı şəraitində hüquq tərbiyəsinin, hüquqi maariflənmənin rolu artmaqdadır. Dövlətin əsas vəzifələrindən biri fəal həyat mövqeyinə malik şəxsiyyət yetişdirməkdən, möhkəm və sabit cəmiyyət yaratmaqdan ibarətdir. Cəmiyyətdə müsbət dəyişikliklərlə yanaşı xoşagəlməz hallara da rast gəlinir. Yeniyetmələrin davranışında mənfi təzahürlərin baş verməsi heç də birdən-birə əmələ gəlmir. Bu hallar tərbiyə prosesindəki qüsurlar və əlverişsiz şərait nəticəsində yaranır. Nöqsanları neytrallaşdırmaq, dövlətin və hüququn əsaslarına dair bilikləri genişləndirmək, insan hüquqlarının müdafiəsinə yönələn və nümunəvi davranış vərdişləri formalaşdıran qanunlarla yeniyetmələri tanış etmək - hüquq tərbiyəsinin mühüm vəzifələrindən hesab edilir.

Yeniyetmələr Azərbaycan Respublikasının Konstitusiyası, BMT-nin

Uşaq hüquqları Konvensiyası ilə onlara verilmiş hüquq və vəzifələrindən, azadlıqlarından xəbərdar olmalı, həyatda öz yerlərini və mövqelərini müəyyənləşdirməlidirlər. Yeniyetmənin hüquqi şüurunun, hüquqi düşüncəsinin və hüquq mədəniyyətinin hansı səviyyədə olması həyatının erkən illərində onun aldığı tərbiyədən xeyli dərəcədə asılıdır. Yeniyetmələrin yenidəntərbiyəsi, onlar arasında hüquq pozğunluqlarının qarşısının alınması və aradan qaldırılması işinin səmərəli təşkili sahəsində ümumtəhsil məktəblərinin üzərinə son dərəcə mühüm vəzifələr düşür. Bu sahədə təlim prosesinin və sinifdənxaric tədbirlərin rolu böyükdür.

Dissertasiyada hüquq tərbiyəsi anlayışı ilə bağlı müxtəlif alimlərin fikirlərinə müraciət olunur. *Bizim fikrimizcə*, şagirdlərin hüquq tərbiyəsi dedikdə, hüquqi şurunu, hüquqi düşüncəsini, hüquqi təfəkkürünü, hüquqa və qanuna uyğun davranışını formalaşdırmaq üçün müəllimin, valideynin, yaxud tərbiyəçinin yeniyetməyə məqsədyönlü, sistemli, fasiləsiz təsiri başa düşülür. Yeniyetmələrin hüquq tərbiyəsinin məqsədi hüquqi şüuru, hüquqi təfəkkürü formalaşdırmaq, hüquqi özünütəhsili və hüquqi özünütərbiyəyə tələbat yaratmaq əsasında V-IX sinif şagirdlərində qanuna və hüquq qaydalarına hörmət və qanunun tələblərini gözləmək, hüquqa və qanuna uyğun davranışa nail olmaqdan ibarətdir.

Hüquq tərbiyəsinin vəzifələrini *belə təsəvvür edirik*: 1) V-IX sinif şagirdlərinin hüquqi şüurunu; 2) hüquqi təfəkkürünü; 3) hüquqa və qanuna uyğun davranışını; 4) hüquq mədəniyyətini formalaşdırmaq; 5) hüquqi özünütəhsilinə və 6) hüquqi özünütərbiyəsinə nail olmaq; 7) yeniyetmələrin insan, o cümlədən uşaq hüquqları, azadlıqları və vəzifələri ilə tanışlığını təmin etmək; 8) V-IX sinif şagirdlərində qanuna və hüquq normalarına hörmət hissləri tərbiyələndirmək; 9) özləri qanuna və hüquq normalarına əməl etməklə yanaşı bunu başqalarından da tələb etmək və s. və i.a.

*Fikrimizcə, hüquq tərbiyəsinin məzmununa* dövlətə, əməyə, ailəyə, ictimaiyyətə, dövlət və şəxsi mülkiyyətə hüquqi münasibət daxildir. Hər bir məktəb məzunu cəmiyyətdə davranış normalarına və qaydalarına, öz hüquq və vəzifələrinə, əmək bacarıqlarına, valideynlərin uşaqlarla və uşaqların valideynlərlə münasibətlərini tənzim edən nikahın əsas müddəalarına, mülki və cinayət məcəlləsinin başlıca müddəalarına, sağlamlığa aid qanunvericiliyə yiyələnməlidir.

Yeniyetmələrin hüquq tərbiyəsinin məzmunu ilə dissertasiyada ətraflı tanış olmaq mümkündür.

I fəslin *ikinci yarımfəsli "Vətəndaşların və uşaqların hüquq və azadlıqlarına dair sənədlər yeniyetmələrin hüquq tərbiyəsinin vasitəsi kimi"* adlanır. Göstərilir ki, hər bir məktəbli də öz hüquq və vəzifələrini

bilməlidirlər. Bu, ona görə lazımdır ki, o hər hansı bir həyati vəziyyətlərdə onlardan istifadə etməyi bacarsın. Böyüklərlə yanaşı uşaqlara aid hüquq və azadlıqlar da mövcuddur. Uşaqlara müəyyən hüquq və azadlıqlar verilməkdən başqa onların da üzərlərinə müvafiq vəzifələr qoyulur ki, onlar öz hüquq və azadlıqlarından bəhrələnməklə yanaşı vəzifələrini də yerinə yetirsinlər.

Qanun uşaqların hüquqlarına və qanunla müəyyən olunmuş mənafelərinə təminat verir.

Ayrı-ayrı fənlərin, o cümlədən Həyat bilgisi və ədəbiyyat fənlərinin tədrisi zamanı və sinifdənxaric tədbirlər prosesində məktəblilərə, yeri gəldikcə insan hüquqlarına və azadlıqlarına dair zəruri məlumatlar verilməli, eyni zamanda cəmiyyətdə, ictimai yerlərdə, küçədə, ailədə, məktəbdə bilavasitə onların hüquqlarına və vəzifələrinə aid olan məsələlərlə bağlı aydınlaşdırıcı, maarifləndirici tədbirlər diqqət mərkəzində dayanmalıdır. Bu istiqamətdə "Şagirdlər üçün qaydalar" həm ibtidai sinif şagirdləri, həm yeniyetmələr (V-IX siniflər), həm də yuxarı sinif şagirdləri (X-XI siniflər) üçün qaydalar tərtib olunmuşdur.

Şagirdlərlə aparılan məqsədyönlü, sistemli, ardıcıl və fasiləsiz işlər onlarda hüquq mədəniyyətinin formalaşmasına imkan verir, məktəblilər öz hüquq və azadlıqları, eyni zamanda vəzifələri ilə yaxından tanış olur və möhkəm əmin olurlar ki, hüquqlarsız vəzifələr, vəzifələrsiz hüquqlar yoxdur.

Fəslin üçüncü yarımfəsli "*Hüquq tərbiyəsinin prinsipləri və metodları*" adlanır. Pedaqoji ədəbiyyatda hüquq tərbiyəsinin aşağıdakı prinsipləri geniş yayılmışdır: 1. Məqsədin aydın olması prinsipi. 2. Hüquq tərbiyəsi işində sistemlilik və fasiləsizlik prinsipi. 3. Yaş xüsusiyyətlərin nəzərə alınması prinsipi. 4. Fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipi. 5. Hüquq tərbiyəsi üzrə işin gedişində yeniyetmə şəxsiyyətinə hörmətlə düzgün tələbkarlıq prinsipi. 6. Kollektivdə, kollektivin köməyilə və kollektiv üçün tərbiyə prinsipi. 7. Yeniyetmənin müsbət cəhətlərinə əsaslanaraq, nöqsanlarının aradan qaldırılması prinsipi. 8. Tələblərdə vahidliyin gözlənilməsi prinsipi. 9. Hüquq tərbiyəsi prosesinə kompleks yanaşma prinsipi və s.

Dissertasiyada həmin prinsiplərin mahiyyətinə aydınlıq gətirilir, konkret nümunələrə əsasən hər bir prinsipin məzmunu, qarşısında dayanan vəzifələr şərh edilir.

Yarımfəsildə, eyni zamanda hüquq tərbiyəsinin metodları üzərində dayanılır. Dissertasiyada hüquq tərbiyəsinin metodları anlayışının mahiyyəti açılır. Göstərilir ki, hüquq tərbiyəsinin metodları ifadəsi altında hüquq tərbiyəsinin vəzifələrini həyata keçirməkdən ötrü müəllimin, yaxud valideynin faydalandığı yollar və vasitələr sistemi anlaşılır. Hüquq tərbi-

yəsinin metodları pedaqoji prosesin məqsədinə və vəzifələrinə, məzmununa, yeniyetmələrin imkanlarına uyğun olaraq dəqiqləşdirilir.

Tərbiyənin digər tərkib hissələri ilə müqayisədə hüquq tərbiyəsi üzrə işdə *vadaretmə* metodunun tətbiqi zərurətə çevrilir. Tərbiyənin metodlarından danışarkən tədqiqatçılar bu metodun adını çəkmirlər. Halbuki yeniyetmə və gəncləri cinayət əməllərindən çəkindirmək, onların hüquq pozğunluqlarının qarşısını almaq baxımından təklif etdiyimiz metodun imkanları və təsir gücü son dərəcə böyükdür.

Yarımfəsildə nəzərdən keçirilən məsələlərlə bağlı əldə olunan nəticələr bunlardır: yeniyetmələr arasında aparılan insan, o cümlədən uşaq hüquqları, azadlıqları və vəzifələri üzrə istər maarifləndirici, istərsə də hüquqa və qanuna uyğun davranış təcrübəsinin formalaşdırılması hüquq tərbiyəsinin prinsiplərinin hansı dərəcədə nəzərə alınmasında və hüquq tərbiyəsinin metodlarının düzgün tətbiqindən çox asılıdır. Bu, təlim prosesinin və sinifdənxaric tədbirlərin hüquqi maariflənmə, hüquqi şüuru və hüquq təfəkkürünü, hüquq mədəniyyətini formalaşdırmaq, V-IX sinif şagirdlərinin ölkə vətəndaşlarının və eyni zamanda öz hüquq və vəzifələrini, azadlıqlarını bilmək, hüquqlarını tələb etməklə yanaşı üzərlərinə düşən vəzifələri yerinə yetirmək imkanlarını reallaşdırır.

Dissertasiyanın **"İnsan hüquqlarına dair məsələlər kontekstində hüquq tərbiyəsinin təcrübi məsələləri"** adlanan ikinci fəsil dörd yarımfəsildən ibarətdir. Fəslin birinci yarımfəsli *"Həyat bilgisi fənninin tədrisində yeniyetmələrə insan hüquqları ilə bağlı məlumatların verilməsi"* adlanır.

Vəzifəsindən asılı olmayaraq, hər bir şəxsin insan hüquqlarına hörmətlə yanaşması demokratik cəmiyyətin təməl daşını təşkil edir. Bütün bunlar isə, təbii ki, öz-özlüyündə meydana gəlmir. Hər şeydən əvvəl bu sahədə bilik və həmin bilikdən həyatda faydalanmaq bacarığı lazım gəlir.

İnsan, o cümlədən uşaq hüquqları və azadlıqları ilə əlaqədar ibtidai (I-IV) siniflərdə aparılan işlər V-IX sinflərdə (yeniyetmələrlə) davam etdirilir. Yeniyetmələrə insan hüquqları barədə zəruri bilik və məlumatların verilməsində, onların öz hüquq və vəzifələrini öyrənmələrində, xüsusən uşaq hüquqlarından xəbərdar olmalarında təlim prosesi böyük kömək göstərir. Yaxşı təşkil olunmuş təlimin gedişində onun təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici vəzifələri uğurla həyata keçir. Təcrübəli müəllimlər Həyat bilgisi, ədəbiyyat və s. fənlərin tədrisi zamanı ilk növbədə dərsin məqsədinin düzgün müəyyənləşdirilməsinə diqqət yetirirlər.

II fəslin "V-IX siniflərdə *ədəbiyyatın tədrisi prosesində insan hüquqları üzrə aparılan işlər* " adlı ikinci yarımfəslində aşağıdakı məsələlər diqqət

mərkəzinə gətirilir. Dərs müəllimin şah əsəridir. Odur ki, o, ilk növbədə təhsilalanları maraqlandırmağı, onların idrak fəallığını, müstəqilliyini, yaradıcılıq qüvvələrini inkişaf etdirməyi bacarmalıdır. Buna isə müəllim təkcə proqram materialını yaxşı bilmək və şagirdlərə bu barədə məlumat verməklə nail ola bilməz. O özü də yaradıcı olmalı, fəal təlim metodlarının imkanlarından faydalanmalıdır.

Ayrı-ayrı mövzular vətəndaş hüquq və azadlıqları ilə, habelə vəzifələrlə yaxından tanış olmaqda yeniyetmələrə kömək göstərir.

Aparılmış məqsədyönlü, sistemli iş yeniyetmələrin öz hüquq və azadlıqları, eyni zamanda üzərlərinə düşən vəzifələri aydın təsəvvür etmələrinə, Vətənin ləyaqətli vətəndaşları kimi yetişmələrinə imkan verir.

II fəslin *üçüncü yarımfəslində "Sinifdənxaric tədbirlər zamanı vətəndaşların hüquq və azadlıqlarına dair məlumatlarla yeniyetmələrin tanış edilmə imkanları"* üzərində dayanılır.

İnsan hüquqları vətəndaşların mənafelərinə, maraqlarına, arzu və istəklərinə, xoş və firavan günlərinə, bu torpağın üzərində sərbəst qayğısız, sülh şəraitində yaşamalarına doğru yönəlir. Onlar cəmiyyətdə toxunulmaz, azad yaşasınlar, fəaliyyət göstərsinlər, təhsil alsınlar, yaşayış sahəsinə malik olsunlar, işləsinlər, ailə qursunlar, istirahət etsinlər, vicdan azadlıqlarına yiyələnsinlər deyə bu hüquqlar müəyyənləşdirilmişdir. İnsan hüquqları şəxsiyyətin şərəf və ləyaqətinə hörməti nəzərdə tutur, bu və ya digər dövlətin mədəni dəyərləri kimi götürülür. Bu, bir həqiqətdir ki, mədəni dəyərlərin meydana gəlməsində və təbliğində məktəb əvəzedilməz rol oynayır. İnsan hüquqları meydana gəlməzdən öncə hakim ideya, təbii hüquqlar nəzəriyyəsi vardı. Əsarət, haqqın-ədalətin pozulması, ayaqlar altına atılması, zorakılıq, hakimiyyət uğrunda mübarizələr insan hüquqlarının yaranmasına imkan vermişdir. Müasir mərhələdə insan hüquqları beynəlxalq statusa malikdir. Məlum olduğu kimi, BMT-nin İnsan Hüquqları Konvensiyası mövcuddur. Ölkələrin çoxu həmin Konvensiyaya qoşulmuşlar. Dövlətlərin əksəriyyəti Konvensiyanın tələblərini yerinə yetirsələr də, bəziləri öz üzərlərinə düşən öhdəliklərə əməl etmirlər. Bu, təbii ki, yolverilməzdir.

Yeniyetmələr sinifdənxaric tədbirlərin gedişində də insan hüquqlarına dair məlumatlar alırlar. Müzakirə və disputlar, hüquq mühafizə orqanları əməkdaşları ilə görüşlər, "Yeniyetmə, əlini ver", "İnsan və qanun", "Hərəkətin gənc müfəttişləri" və s. klub və dəstələr, tematik axşamlar, viktorina, müsabiqə və yarışlar yeniyetmə oğlan və qızların insan hüquqlarına dair məlumatlılıq səviyyələrini artırır.

Sinifdənxaric tədbirlərdə həm də «Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu" (2002), "Mülki və Siyasi hüquqlar

haqqında Beynəlxalq Pakt” (1966), “Ümumdünya İnsan Hüquqları Bəyannaməsi” (1948), “Uşaq hüquqları Konvensiyası” (1953), “Avropa Sosial Xartiyası” (1999) və s. bu kimi qanunlar və konvensiyalarla tanış olurlar.

İnsan hüquqlarına hörmət cəmiyyətin demokratikliyini sübuta yetirən çox mühüm atributlardan biridir. Respublikamızda insan və vətəndaş hüquqları və azadlıqlarının müdafiəsi məqsədilə ulu öndər Heydər Əliyevin 1998-ci il fevralın 22-də imzaladığı “İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanı və 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” əhəmiyyətli yer tutur.

Azərbaycanda insan, vətəndaş hüquq və azadlıqlarının qorunması işi hazırda da əhəmiyyətli rol oynayır. Ölkə Prezidenti cənab İlham Əliyev 28 dekabr 2006-cı il tarixdə “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” ilə bağlı sərəncam imzalamışdır.

Azərbaycan Uşaq Hüquqları Konvensiyasına (1959) 1992-ci ildə qoşulub. Uşaq Hüquqları Konvensiyanın 28-ci maddəsi hər bir uşağın fiziki, əqli, mənəvi və sosial inkişafına uyğun təhsil almaq hüquqlarına təsbit edir.

Yeniyetmələrin uşaq hüquqları ilə tanışlıq səviyyələri necədir? Onlar Azərbaycan Respublikasının Konstitusiyasının ayrı-ayrı maddələrinə hansı səviyyədə bələddirlər?

Dissertasiyada bu məsələlərin üzərində ətraflı dayanılmışdır.

İkinci fəslin *dördüncü yarımfəsli “İnsan hüquqlarına və azadlıqlarına dair məsələlər kontekstində yeniyetmələrin hüquq tərbiyəsi üzrə işin səmərəlilik göstəriciləri”* adlanır.

Eksperiment 2011-2017-ci illərdə Qazax şəhər 1 və 2 nömrəli, Şəmkir şəhər 2 nömrəli, Gəncə şəhər 5 nömrəli tam orta məktəblərində üç mərhələdə aparılmışdır: müəyyənedici, öyrədici və yoxlayıcı.

Eksperimentin müəyyənedici mərhələsində aşağıdakı vəzifələrin həlli diqqət mərkəzində dayanmışdır: 1) vətəndaşların və uşaqların hüquq və azadlıqlarını, vəzifələrini diqqət mərkəzinə gətirilən bəzi hüquqi normativ sənədlər, məktəbdə və ailədə problem baxımından mövcud vəziyyət öyrənilmişdir. 2) insan, o cümlədən uşaq hüquqları və azadlıqları üzrə aparılan sistemli, məqsədyönlü, fasiləsiz işlərin yeniyetmələrdə hüquq mədəniyyətinin təşəkkülünə təsiri araşdırılmışdır.

Araşdırmalar göstərdi ki, yeniyetmələrin bir qismi insan, o cümlədən uşaq hüquqlarına dair hüquqi sənədlərin məzmunundan xəbərdardırlar, öz hüquq və vəzifələrini aydın təsəvvür edir, öz hüquq və vəzifələrindən istifadə etməyi bacarır, həm də qanunla üzərlərinə düşən vəzifələri yerinə yetirirlər.

V-IX sinif şagirdlərinin bir hissəsi hüquqi sənədlərin məzmunu ilə az tanışdırlar, bir qismi, ümumiyyətlə, tanış deyildir. Yeniyetmələrin bir qismi bəzi hüquq və azadlıqlarını, hətta vəzifələrinin bilmirlər. Onlar dövlətin hüquqi sistemini aydın təsəvvür edə bilmirlər. Cəmiyyətdə bərqərar olan hüquqi münasibətlərin subyektləri kimi öz hüquq və vəzifələrinin həyata keçirilməsi sahəsində tamamilə savadsızdırlar. Yeniyetmələrdə qanunauyğun davranışın düzgün hüquqi modeli hələ də yoxdur. Onlar həyatda tez-tez öz şəxsi intuisiyalarına əsaslanır, yaxud etibarsız məsləhətləri rəhbər tuturlar.

Məktəbdə hüquq tərbiyəsinin və təliminin nəzəriyyəsində də vahid konsepsiya yoxdur. Bəzi müəllimlər dərslərdə mövzuları tərbiyəvi baxımdan istiqamətləndirməyi, yeniyetmələrdə zəruri keyfiyyətləri formalaşdırmağı bacarmırlar. Hətta elə məktəblər vardır ki, bir neçə il ərzində pedaqoji şurada şagirdlərin, o cümlədən yeniyetmələrin hüquqi maariflənməsi ilə bağlı məsələ müzakirə etməmişlər. Nəinki bəzi şagirdlər, hətta bir qisim müəllim də "Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu"; "Uşaq hüquqları haqqında BMT-nin Konvensiyası"; "Uşaqların Cinsi İstismar və Seksual Xarakterli Hərəkətlərdən Müdafiəsinə dair Avropa Şurası Konvensiyası"; "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya", Azərbaycan Respublikasının İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı" ilə tanış deyillər.

Müəyyənedici eksperimentin nəticələri eksperimentin ikinci, öyrədici mərhələsinə keçməyə əsas vermişdir. Bu mərhələdə eksperimental və kontrol siniflər müəyyənləşdirilmişdir. Siniflərin təlim müvəffəqiyyətinin və yeniyetmələrin tərbiyəlilik, o cümlədən hüquq mədəniyyətinə yiyələnmə səviyyələrinin eyni, yaxud yaxın olmaları diqqət mərkəzində saxlanılmışdır. Bundan başqa, eksperimentə cəlb olunmuş sinif rəhbərlərinin və fənn müəllimlərinin nəzəri və metodik səviyyələrinin və iş stajlarının eyni olmasına (təxminən 10-15 il) olmasına fikir verilmişdir.

Öyrədici eksperiment 5 il ərzində beş mərhələdə həyata keçirilmişdir. 1) təşkilati-hazırlıq mərhələ; 2) informasiya təminatı mərhələsi; 3) subyekt-subyekt münasibətlərinin formalaşdırılması; 4) vətəndaşların, o cümlədən uşaqların hüquqları, azadlıqları və vəzifələri ilə bağlı aparılmış məqsədyönlü, sistemli və fasiləsiz işin yeniyetmələrdə hüquq mədəniyyətinin formalaşdırılmasında əsas vasitə kimi çıxış etməsinin etiraf olunması; 5) yekunlaşdırıcı-nəticə xarakterli.

Birinci mərhələnin (təşkilati-hazırlıq) vəzifəsi: psixoloji iqlimin, psixoloji səriştəliliyin, müəllimlərin, valideynlərin və şagirdlərin öz hüquqlarından, azadlıqlarından və vəzifələrindən xəbərdar olma səviyyələri, öz hüquqlarından, azadlıqlarından istifadə etmə imkanları, öz vəzifələrini yerinə

yetirmə səviyyələri. Hüquq tərbiyəsi, hüquqi şüurun və hüquq təfəkkürünün formalaşdırılması üçün emosional rahatlıq mühitinin yaradılması; II mərhələnin (informasiya təminatı) vəzifəsi: yeniyetmələrə vətəndaşların, o cümlədən uşaqların hüquqları, azadlıqları və onların vəzifələri barədə təlim prosesində və sinifdənxaric tədbirlərdə zəruri məlumatların verilməsi və bunun yeniyetmələrdə hüquq mədəniyyətinin təşəkkül tapması ilə nəticələnməsi; III mərhələnin (subyekt-subyekt münasibətlərinin formalaşdırılması) vəzifəsi: yeniyetmələrin Azərbaycan Respublikasının Konstitusiyası, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Uşaq hüquqları haqqında BMT-nin Konvensiyası"; "Uşaqların Cinsi İstismar və Seksual Xarakterli Hərəkətlərdən Müdafiəsinə dair Avropa Şurası Konvensiyası", "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya" və s. bu tipli sənədlərlə tanışlıq səviyyələri və onların məlumatlılıq səviyyələrinin yüksəldilməsi; IV mərhələnin (vətəndaşların, o cümlədən uşaqların hüquqları, azadlıqları və vəzifələri ilə bağlı aparılmış məqsədyönlü, sistemli və fasiləsiz işin yeniyetmələrdə hüquq mədəniyyətinin formalaşdırılmasında əsas vasitə kimi çıxış etməsinin etiraf olunması) vəzifəsi: hüquqi şüur və düşüncənin, hüquq mədəniyyətinin formalaşdırılması üzrə işin təkmilləşdirilməsi; V mərhələnin (yekunlaşdırıcı-nəticə) vəzifəsi: hüquqi təfəkkürün və hüquq mədəniyyətinin formalaşdırılması səviyyəsinin monitorinqi.

Eksperimentin birinci mərhələsində kollektivdə psixoloji iqlimin yaradılması diqqət mərkəzində dayanmışdır. Buna anket sorğusunun keçirilməsi, müşahidə və söhbətlərin aparılması, məktəb sənədlərinin və yeniyetmələrin yaradıcılıq məhsullarının öyrənilməsi; sinif rəhbərlərinin, valideynlərin, fənn müəllimlərinin, məktəb psixoloqunun seminar məşğələlərinə cəlb edilməsi; insan, o cümlədən uşaq hüquqlarına (azadlıqlarına və vəzifələrinə) həsr olunmuş tədbirlərin səmərəli təşkilinə dair onlara məsləhətlərin verilməsi; pedaqoji kollektivdə psixoloji xidmətin köməyi ilə şəxsiyyətlərarası qarşılıqlı münasibətləri bərqərar etməklə nail olunmuşdur.

Eksperimentin ikinci mərhələsində "İnsan, o cümlədən uşaq hüquqları, azadlıqları, Konstitusiya ilə onların üzərinə düşən vəzifələr" üzrə işin təşkilinə dair tövsiyələr işlənib hazırlanmış və tətbiq edilmişdir. Bu mərhələdə müəllimlərin yeniyetmələrlə insan, o cümlədən uşaq hüquqlarına, azadlıqlarına, Konstitusiya ilə onların üzərinə düşən vəzifələrə aid nəzəri və praktik hazırlığı diqqət mərkəzinə gətirilmişdir. Müəllimlər yeniyetmələrlə fəal işə cəlb edilmişlər. Yeniyetmələr üçün söhbətlər, diskussiyalar, praktikumlar, mühazirələr təşkil olunmuşdur. Müəllimlər, eyni zamanda təlim prosesində Həyat bilgisi və ədəbiyyat fənlərinin imkanlarından faydalanmışlar.

III mərhələdə yeniyetmələr həm də fakültativlərdə, dərnəklərin fəaliyyətində, sinif saatlarında məşğələlərə cəlb edilmişlər.

IV mərhələdə insan hüquqlarına dair məlumatlar bir neçə istiqamətlə yeniyetmələrə çatdırılmışdır. Təlim prosesinin və sinifdənxaric tədbirlərin geniş imkanları, valideynlərlə məqsədyönlü əlaqə, treninqlər bu sahədə müəllimlərin köməyinə çatmışdır. Dərsdənkənar vaxtlarda hüquqi təfəkkürün formalaşdırılması, hüquq mədəniyyətinə nail olma imkanları sinif saatlarında, şagirdlərin kütləvi tədbirlərdə iştirakı ilə, ekskursiya işi, hüquqşünaslarla görüşləri və s.-də mümkün olmuşdur.

V mərhələdə göstəricilər nəzərdən keçirilmiş, qruplaşdırma, sistemləşdirmə, təhlil və tərkib aparılmış, müvafiq nəticəyə gəlinmiş, hüquq mədəniyyətinin formalaşdırılmasının monitorinqi reallaşmışdır.

Həyat bilgisi fənni üzrə V sinifdə - "Ailə kiçik dövlətdir", "Dövlət və dövlətçilik", Hüquqlarımız qorunur", "Dini dözümlülük"; VI sinifdə - Ailə və Vətən qarşısında mənəvi borcumuz", "Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları", "Hüquqlarımızı qoruyanlar"; VII sinifdə - "Dövlətçilik ənənələrimiz", "Cəmiyyət və onun hüquqi təminatı", "Hüquq sahələri"; VIII sinifdə "İnsan hüquqları", "İnsan hüquqlarının pozulması"; IX sinifdə - "Vətəndaş cəmiyyəti", "Vətəndaş cəmiyyətində demokratik prinsiplər", "İnsan hüquqları", "Hüququmuz beynəlxalq səviyyədə qorunur", və s.; ədəbiyyat fənni üzrə isə, V sinfin ədəbiyyat dərsliyində - X.R. Ulutürkün "Oğul həsrəti"; M. İbrahimbəyovun "Püstə ağacı"; E. Hüseynbəylinin "Firuzə qaşlı xəncər"; B. Vahabzadənin "Şəhidlər"; VI sinifdə - Ə. Səmədlinin "Qanlı bənövşə"; VII sinifdə - S. Vurğunun "Azərbaycan", B. Vahabzadənin "Vətəndaş", Z. Xəlilin "Sonuncu güllə"; VIII sinifdə - Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasından alınmış "Sultan Səncər və qarı", M. Füzulinin "Padşahi-mülk" şeiri; IX sinfin ədəbiyyat dərsliyində - Ə. Cavadın "Azərbaycan bayrağına", A. İldırımın "Əsir Azərbaycanım", S. Rüstəmin "Təbrizim", Mir Cəlalın "Vətən yaraları", M. Şəhriyarın "Heydərbabaya salam", Ə. Kərimin "Qaytar ana borcunu", X.R. Ulutürkün "Qaytar mənim qüdrətimi, Azərbaycan" və s. mövzular eksperimentə qoyulmuşdu. Həmin əsərlərin nümunəsində yeniyetmələrlə vətəndaş hüquq və azadlıqlarına dair səmərəli işlər aparılırdı

Sinifdənxaric tədbirlər kimi eksperimentdə "Sənin hüquq və vəzifələrin", "Vətəndaşların azadlıqları", "Uşaq hüquq və azadlıqlarına aid beynəlxalq və milli hüquqi sənədlər", "Əlini mənə ver, yeniyetmə", "Qanun və sən" və s. bu kimi söhbət, müzakirə, disput və diskussiyalardan istifadə olunmuşdur.

Eksperimentin ikinci mərhələsinin yekunları eksperimentin üçüncü, yoxlayıcı mərhələsinə keçməyə əsas vermişdir. Pedaqoji eksperimentlə bağlı dissertasiyada 4 cədvəl öz əksini tapmışdır. Dördüncü cədvəli diqqət mərkəzinə gətirək.

Cədvəldən görünür ki, yeniyetmələrlə məqsədyönlü, sistemli, ardıcıl iş eksperimental siniflərin səmərəli göstəricilərə nail olmasına imkan vermişdir. Eksperimental siniflərin göstəriciləri kontrol siniflərin göstəricilərindən yüksək olmuşdur.

V-IX siniflərdə təhsil alan məktəblilərin öz hüquq və azadlıqları, eyni zamanda üzərlərinə düşən vəzifələri öyrənmələrində onların özləri tərəfindən hazırlanmış və əvvəlcə şagird özünüidarə orqanlarının ümumi yığıncağında, daha sonra məktəb konfransında yekdilliklə, bir səslə qəbul olunmuş "Məktəb Konstitusiyası" da özünəməxsus rol oynayır.

Beləliklə, irəli sürülən fərziyyə özünü doğrultdu. Eksperimental siniflərin şagirdlərində hüquq mədəniyyətinin səviyyəsi xeyli inkişaf etdi.

**Eksperimental və kontrol qrup şagirdlərinin öz hüquq və azadlıqları, üzərlərinə düşən vəzifələri ilə məlumatlılıq səviyyələrini əks etdirən göstəricilər**

***Cədvəl 2.4.1***

| Sıra № | Bizi maraqlandıran məsələlər | Səviyyələr | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yüksək (nəfərlə) | | Orta (nəfərlə) | | Aşağı (nəfərlə) | |
| | | Eks. | Kontr. | Eks. | Kontr. | Eks. | Kontr. |
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* | *8* |
| 1 | Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanununa görə uşaqlar barəsində dövlət siyasəti nəyi nəzərdə tutur? | 70 | 51 | 45 | 52 | 9 | 20 |
| 2 | Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini hansı orqanlar həyata keçirməlidir? | 69 | 48 | 47 | 44 | 8 | 31 |
| 3 | Həmin orqanlar, birliklər və təşkilatlar fəaliyyətlərində hansı prinsipi rəhbər tutmalıdırlar? | 67 | 43 | 46 | 42 | 11 | 38 |
| 4 | Uşağın həyatı və sağlamlığının mühafizəsi hüququ haqqında Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanununda nə deyilir? | 71 | 55 | 43 | 41 | 10 | 27 |
| 5 | Uşaq hüquqları haqqında Azərbaycan | 68 | 52 | 51 | 49 | 5 | 22 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Respublikasının Qanununda Uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ barədə nə deyilir? | | | | | | |
| 6 | Konvensiyada uşağın fiziki, yaxud psixoloji zorakılıqdan, təhqirdən və hər hansı formada pis rəftardan qoruması ilə əlaqədar hansı fikir irəli sürülür? | 58 | 47 | 51 | 43 | 15 | 33 |
| 7 | Ailə şəraitindən məhrum olmuş uşağın müdafiəsini təmin etməklə bağlı Konvensiyada nə deyilir? | 56 | 44 | 62 | 50 | 6 | 29 |
| 8 | Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların bərabərlik hüququ haqqında nə deyilr? | 61 | 47 | 53 | 48 | 10 | 28 |
| 9 | Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların azadlıq hüququ haqqında nə deyilir? | 71 | 58 | 48 | 52 | 5 | 13 |
| 10 | Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların şəxsi toxunulmazlıq hüququ haqqında nə deyilir? | 69 | 59 | 46 | 45 | 9 | 19 |
| 11 | Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların əmək hüququ haqqında nə deyilir? | 74 | 57 | 45 | 49 | 5 | 17 |
| 12 | Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların istirahət hüququ haqqında nə deyilir | 72 | 60 | 44 | 48 | 8 | 15 |
| 13 | Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların ana dilindən istifadə hüququ haqqında nə deyilir? | 70 | 60 | 50 | 47 | 4 | 16 |

*Qeyd*: Sorğuya eksperimental siniflərdən 124, kontrol siniflərdən 123 yeniyetmə oğlan və qız cəlb edilmişdir.

Tədqiqatdan bağlı aşağıdakı **nəticələr** alınmışdır:

1. Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması ölkəmizin Əsas Qanununu - Konstitusiyasının 12-ci maddəsinə əsasən dövlətin ali məqsədi kimi elan olunmuşdur. Həmin maddəyə uyğun olaraq, respublikamızda insan hüquqlarının inkişafına və təkmilləşdirilməsinə həmişə fikir verilir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının inkişaf və təkmilləşdirilməsi məsələləri Azərbaycan

Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

2. Tədqiqatdan görünür ki, təhsilalanların, o cümlədən yeniyetmələrin hüquqi şüurunun, hüquq düşüncəsinin, hüquq təfəkkürünün və son nəticədə hüquq təfəkkürünün formalaşdırılması onların hüquq maarifləndirilməsi işinin hansı səviyyədə təşkil olunmasından xeyli dərəcədə asılıdır. Hüquq maarifləndirilməsi üzrə iş ailədə valideynlər tərəfindən, məktəbdə təlim prosesində Həyat bilgisi, ədəbiyyat və s. fənlərin tədrisi prosesində, eyni zamanda sinifdənxaric tədbirlərin köməyi ilə həyata keçir. Məqsədyönlü, sistemli və fasiləsiz şəkildə aparılan bütün bu işlər yeniyetmə oğlan və qızlarda hüquq mədəniyyətinin formalaşdırılmasına şərait yaradır.

3. Şagirdlər "Azərbaycan Respublikasının Konstitusiyası", "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Uşaq hüquqları haqqında BMT-nin Konvensiyası", "Uşaqların Cinsi İstismar və Seksual Xarakterli Hərəkətlərdən Müdafiəsinə dair Avropa Şurası Konvensiyası", "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya" və s. bu kimi sənədlərlə tanış olmaq nəticəsində insanların (vətəndaşların) hüquq və azadlıqlarına və onların həyata keçirilməsi yollarına; eyni zamanda uşaq hüquq və azadlıqlarına və onların həyata keçirilməsi yollarına bələd olurlar.

4. "Məktəb Konstitusiyası" yeniyetmələr tərəfindən hazırlanır. Onların özünüidarəsi baxımından faydalıdır. Hələ məktəb illərindən onlar qanunun tələbləri ilə yaşamağa alışır, məktəb daxilində özləri tərəfindən müəyyən olunmuş hüquq və azadlıqlarını reallaşdırır, vəzifələrini yerinə yetirirlər.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək mümkündür:

1. V-IX siniflərin Ədəbiyyat dərsliklərində insan hüquqlarına, o cümlədən uşaq hüquqlarına dair daha çox mövzuların salınması məsləhətdir.

2. BMT-nin Uşaq hüquqları Konvensiyası üzrə həm təlim prosesində, həm də sinifdənxaric tədbirlərdə söhbətlərin aparılması məqsədəuyğundur.

Tədqiqatın əsas məzmunu, başlıca elmi ideyaları, alınan nəticələr aşağıdakı çap **əsərlərdə** öz əksini tapmışdır:

1. Şagirdlərlə insan hüquqları üzrə aparılan işlər // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2010, № 3, s. 53-55

2. Sinifdənxaric tədbirlər prosesində yeniyetmələr arasında insan hüquqları üzrə aparılan işlər // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2011, № 1, s. 139-141

3. Məktəblilərə insan hüquqlarının öyrədilməsi / "Azərbaycan təhsili

yeni inkişaf mərhələsində” mövzusunda respublika elmi konfransının materialları. Bakı: Mütərcim, 2010, s. 307-310

4. Məktəbdə Uşaq Hüquqları haqqında BMT-nin Konvensiyasının həyata keçirilməsi imkanları // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2011, № 4, s. 189-190

5. Yeniyetmələr arasında uşaq hüquqları üzrə aparılan işlərin monitorinqi / “Təhsil sistemində monitorinq və qiymətləndirmənin yeri” mövzusunda elmi konfransın materialları. Bakı: Mütərcim, 2012, s. 49-52

6. Работы по правам ребенка, проводимые среди школьников // Известия Кызгызской Академии Образования, 2014, № 5, с. 91-94

7. “Uşaqların cinsi istismarı və seksual xarakterli hərəkətlərindən müdafiəsinə dair Avropa Konvensiyası” üzrə yeniyetmələr arasında aparılan işlər / “Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri” mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan şəhəri, 6 dekabr 2013-cü il. Bakı: Mütərcim, 2013, s. 157-158

8. “İnsan və cəmiyyət” fənininin tədrisi prosesində insan hüquqları üzrə aparılan işlər // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2013, № 5, s. 238-244

9. Azərbaycanlılara qarşı soyqırımlarla yeniyetmələrin tanış edilməsi təcrübəsindən / “Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar” mövzusunda beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 5-6 iyun 2005-ci il. Bakı: Mütərcim, 2015, s. 361-362

10. “Azərbaycan Respublikasının Konstitusiyası” fənninin tədrisində yeniyetmələrə insan hüquqları ilə bağlı məlumatların verilməsi // Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, 2014, № 3, s. 26-32

11. V-IX siniflərdə ədəbiyyatın tədrisi prosesində insan hüquqları üzrə aparılan işlər // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2018, № 3, s. 49-54

**Севда Ханмамед гызы Искендерова**

# СИСТЕМА РАБОТ ПО ПРАВАМ ЧЕЛОВЕКА СРЕДИ ПОДРОСТКОВ

## *РЕЗЮМЕ*

Диссертация состоит из двух глав и семи параграфов.

Первая глава называется " Концептуальные основы правового воспитания подростков в контексте вопросов по правам человека". Глава охватывает три параграфа. В параграфах раскрывается сущность правового воспитания подростков, цель и задачи, содержание, дано определение правового воспитания, показаны задачи, стоящие перед ним; рассмотрены документы по правам и свободе граждан и детей как средства воспитания правового воспитания подростков. В данных подглавах также определены принципы и методы правового воспитания.

Вторая глава "Практические вопросы правового воспитания в контексте задач по правам человека" состоит из четырех подглав. В подглавах отражены следующие вопросы; предоставление подросткам информации о правах человека при преподавании предмета «Познание мира»; проведение работ по правам человека в процессе преподавания предмета литература; возможности ознакомления подростков с правами и свободой граждан во время внеклассных мероприятий, ознакомление подростков с Законом Азербайджанской Республики "О правах ребенка"; возможности реализации в школе "Конвенции ООН о правах ребенка", "Конвенция Совета Европы о защите детей от сексуальной эксплуатации и сексуального насилия" и другие вопросы. В данной подглаве также показана эффективность показателей работ по правовому воспитанию подростков в контексте прав и свобод человека. В подглаве дана информация об организации, проведении и результатах эксперимента.

Диссертация завершается выводами, предложениями и списком использованной литературы.

**Sevda Khanmamed gizy Iskenderova**

# THE SYSTEM OF WORK ON HUMAN RIGHTS AMONG ADOLESCENTS

## *SUMMARY*

The thesis consists of two chapters and seven paragraphs.

The first chapter is called "Conceptual framework for the legal education of adolescents in the context of human rights issues." The chapter covers three paragraphs. In paragraphs the essence of legal education of teenagers is revealed, the purpose and tasks, content, the definition of legal education is given, the tasks facing it are shown; documents on the rights and freedom of citizens and children as a means of educating the legal education of adolescents. The given sub-chapters also define the principles and methods of legal education.

The second chapter "Practical issues of legal education in the context of human rights tasks" consists of four sub-chapters. The sub-chapters reflect the following questions: providing adolescents with information about human rights while teaching the subject "**Cognition of the World**"; carrying out work on human rights in the teaching of the subject matter **Literature**; the possibility of acquainting teenagers with the rights and freedoms of citizens during extracurricular activities, introducing adolescents to the Law of the Republic of Azerbaijan on the Rights of the Child; the possibility of implementing the UN Convention on the Rights of the Child in school, the Council of Europe Convention on the Protection of Children against Sexual Exploitation and Sexual Abuse and other issues. This subchapter also shows the effectiveness of indicators of work on the legal education of adolescents in the context of human rights and freedoms. The sub-chapter gives information on the organization, conduct and results of the experiment.

The thesis ends with conclusions, suggestions and a list of used literature.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**СЕВДА ХАНМАМЕД гызы ИСКЕНДЕРОВА**

# СИСТЕМА РАБОТ ПО ПРАВАМ ЧЕЛОВЕКА СРЕДИ ПОДРОСТКОВ

**58.04.01 – Общая педагогика, история педагогики и образования**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени
доктора философии по педагогике**

**БАКУ – 2018**